# Vətəndaşlara göstərilən xidməti daim yaxşılaşdırmaq əsas vəzifədir

Qəbələ ASAN xidmət Mərkəzi rayonun idarə və müəssisə rəhbərləri, icra hakimiyyəti başçısının inzibati ərazilər üzrə nümayəndələri, bələdiyyə sədrləri, məktəb direktorları və ictimaiyyətin nümayəndələri ilə görüş keçirmişdir.

Tədbirin keçirilməsində məqsəd bu ilin avqust ayının 23-dən rayonumuzda fəaliyyət göstərən ASAN xidmət Mərkəzinin xidmət sahələri, mərkəzin iş prinsipləri ilə görüş iştirakçılarını tanış etmək idi.

Toplantını giriş sözü ilə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov açmışdır. Mərkəzin fəaliyyəti barədə danışan direktor Əbdül Əliyev bildirmişdir ki, Qəbələ "ASAN xidmət" Mərkəzi 10 inzibati rayonda yaşayan təxminən bir milyon vətəndaşa xidmət edir.

Mərkəz fəaliyyətə başladığı qısa müddət ərzində vətəndaşların rəğbətini qazanmışdır. İlk dəfə Azərbaycanda fəaliyyətə başlamış ASAN xidmət artıq dünyanın bir sıra ölkələrində maraqla qarşılanıb və bu təcrübə həmin ölkələrdə də yayılır. ASAN xidmət mərkəzlərində əhaliyə 32 növ xidmət göstərilir.





Qəbələ ASAN xidmət Mərkəzinin əməkdaşı Arzu Qocayev toplantı iştirakçılarını bu qurumun xidmət sahələri və iş prinsipləri ilə tanış edərək bildirdi ki, mərkəzin iş prinsipinin əsasında şəffaflıq və operativlik durur. Əməkdaşların əhaliyə göstərdiyi xidmətlərin keyfiyyətinə gündəlik nəzarət olunur.

Mərkəzin əməkdaşı Abbas Abdullayev xidmətə cəlb olunan könüllülərin fəaliyyətinin təşkili və əhəmiyyəti barədə məlumat verdi.

Sonda mərkəzin əməkdaşları yığıncaqda iştirak edən vətəndaşların suallarını izahlı və hərtərəfli şəkildə cavablandırdılar.

Tədbiri RİH başçısının birinci müavini Abil Ağasəfov yekunlaşdırdı.

*«Qəbələ».*

**İlkin Vəlizadə.**

# Dini radikalizmlə mübarizə günün tələbidir

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Qəbələdə "Dini radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda tədbir keçirilib.

Tədbiri açan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov rayondakı dini durum barədə ümumi məlumat verib. Bildirib ki, Qəbələ rayonu Azərbaycanda müxtəlif xalqların, dini konfessiyaların, icmaların birgə yaşadığı ən nümunəvi bölgələrdən biri sayılır. Rayonda məscidlərin, alban məbədlərinin, müxtəlif dini ayinlərin icra edildiyi ziyarətgahların mövcud olduğu və sərbəst fəaliyyət göstərdiyi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.



DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək dövlət-din münasibətlərindən, ölkəmizdə milli-mənəvi və dini dəyərlərin qorunması və təbliği sahəsində görülən işlərdən bəhs edib. O qeyd edib ki, Azərbaycan tolerant ölkədir və burada bütün dinlərin nümayəndələri azad şəraitdə yaşayırlar. Səyyad Salahlı, həmçinin dini radikalizmin mahiyyəti və onunla mübarizə yolları, dünyada baş verən siyasi proseslərin dini radikalizmə təsiri barədə məlumat verib. Azərbaycan dövlətinin tarixən ölkəmizdə mövcud olan və keçmişdən bizə miras qalan mütərəqqi dini ənənələrin yaşadılması və inkişafı ilə əlaqədar gördüyü işlərdən bəhs edən sədrin birinci müavini, eyni zamanda, gənclərin, ziyalıların və din xadimlərinin dini radikalizmlə mübarizədə fəal olmalarının vacibliyindən söz açıb.

Daha sonra mərkəzi "Cümə" məscidinin naib imamı Saleh Şirinov, Qəmərvan dini icmasının sədri İkram Ziyadov mövzu ətrafında çıxış ediblər. Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Tədbirdə rayonda fəaliyyət göstərən dini icmaların sədrləri, din xadimləri, rayon ağsaqqalları, ziyalılar və gənclər iştirak ediblər.

*«Qəbələ».*

**İlkin Vəlizadə.**

# Narkomaniyaya qarşı mübarizəyə həsr edilmiş tədbir keçirilmişdir

Oktyabr ayının 24-də Qəbələ Mədəniyyət Mərkəzində «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair «2012-2018-ci illər üçün Dövlət Proqramı»na uyğun olaraq narkomanlığa qarşı mübarizə sahəsində maarifləndirmə işi ilə bağlı tədbir keçirilmişdir.

Tədbirə rayon müəllimlərinin, səhiyyə işçilərinin, gənclərin nümayəndələri dəvət olunmuşdular.

Tədbiri giriş sözü ilə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova açmışdır. Respublika Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun üzvü Raqif Allahverdiyev mövzu ilə əlaqədar məruzə etmişdir. Respublika Səhiyyə Nazirliyinin Narkoloji Mərkəzinin narkoloq həkimi Asif Kəngərli, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinn Regional Mərkəzlərlə iş şöbəsi müdirinin müavini Aylın Rəcəbli, Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşı, polis polkovnik-leytenantı Şahin Hüseynov və başqaları narkomanlığa–dövrümüzün bəlasına qarşı mübarizə tədbirlərindən danışmışlar. Çıxışlarda birmənalı şəkildə qeyd olunmuşdur ki, narkomanlıq əsrimizin bəlasıdır.Narkotik vasitə ilk hallarda sakitləşdirici və uyuşdurucu təsir göstərir, getdikcə daha çox istifadə etmək istəyi yaradır. İnsanın mərkəzi sinir sisteminə zərər verərək, insanda fiziki və psixoloji problemlər yaradır. Narkotik maddələrdən fəsadsız istifadə üsulu yoxdur və bu maddələrdən hətta bir dəfə istifadə edən şəxslər üçün asılılıq yaranma risqi böyükdür. Narkotikdən istifadə edən insan bir şəxsiyyət kimi sıradan çıxır, vaxsız ölümə düçar olur. Bir müddət sağ qalanlar isə ailəsi və cəmiyyət üçün arzuolunmaz yükə çevrilir. Buna görə də hamı bu bəlaya qarşı mübarizədə əlbir işləmişdir.



Sonra mövzu ətrafında tədbir iştirakçılarını maraqlandıran suallara cavab verilmiş, tədbir maraqlı diskussiya şəklində keçmişdir.

Narkomanlıq bəlasına həsr olunmuş qısametrajlı «Hədəf» filmi nümayiş etdirilmişdir.

Tədbiri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun üzvü Şahin İsmayılov yekunlaşdırmışdır.

*«Qəbələ».*

**Səhrab Umuyev.**